# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# «Tikinti materiallarının və məmulatının sertifikatlaşdırılmasını həyata keçirən müəssisələrin laboratoriyalarının, habelə sınaq laboratoriyalarının akkreditasiyası Qaydaları»nın təsdiq edilməsi barədə

# Qərar № 103

***Bakı şəhəri, 14 aprel 2014-cü il***

«Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında» Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 1.6.11-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

«Tikinti materiallarının və məmulatının sertifikatlaşdırılmasını həyata keçirən müəssisələrin laboratoriyalarının, habelə sınaq laboratoriyalarının akkreditasiyası Qaydaları» təsdiq edilsin (əlavə olunur).

***Azərbaycan Respublikasının Baş naziri***

***Artur RASİ-ZADƏ***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (17 aprel 2014-cü il, № 77) («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2014-cü il 14 aprel tarixli*
*103 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Tikinti materiallarının və məmulatının sertifikatlaşdırılmasını həyata keçirən müəssisələrin laboratoriyalarının, habelə sınaq laboratoriyalarının akkreditasiyası

# Qaydaları

## *1. Ümumi müddəalar*

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 55.2-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və tikinti materiallarının və məmulatının sertifikatlaşdırılmasını həyata keçirən müəssisələrin laboratoriyalarının, habelə sınaq laboratoriyalarının (bundan sonra — laboratoriya) akkreditasiya qaydalarını müəyyən edir.

1.2. Laboratoriyaların akkreditasiyasının məqsədi laboratoriyalarda yerinə yetirilən sınaqlara inamı artırmaq, bazara keyfiyyətli məhsul çıxarılmasını təmin etməklə istehlakçıların, dövlətin və təsərrüfat subyektlərinin qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərini müdafiə etməkdən ibarətdir.

1.3. Laboratoriyaların akkreditasiyası — uyğunluğun qiymətləndirilməsi fəaliyyətini yerinə yetirmək üçün laboratoriyanın texniki normativ hüquqi aktlarda müəyyən olunan tələblərə cavab verməsinin və həmin fəaliyyəti həyata keçirməyə səlahiyyətli olmasının rəsmi tanınması prosesidir.

## *2. Laboratoriyaların akkreditasiya qaydası*

2.1. Laboratoriyaların akkreditasiyası aşağıdakı mərhələlərdən ibarətdir:

2.1.1. müraciətin qəbul edilməsi;

2.1.2. qiymətləndirmə;

2.1.3. qərarın qəbul edilməsi.

2.2. Müraciətin qəbul edilməsi

2.2.1. Laboratoriyaların akkreditasiyası ərizəçinin (fiziki və ya hüquqi şəxslər) Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Dövlət Akkreditasiya Xidmətinə (bundan sonra — Akkreditasiya üzrə Milli Orqan) ərizə ilə yazılı və ya elektron formada müraciəti əsasında aparılır.

2.2.2. Akkreditasiya olunmaq üçün müraciət etmiş laboratoriya «AZS ISO/IEC 17025:2009 «Sınaq və Kalibrləmə laboratoriyalarının səlahiyyətliliyinə ümumi tələblər» standartının (bundan sonra — standart) tələblərinə cavab verməlidir.

2.2.3. Fiziki şəxs olan ərizəçi ərizə ilə birlikdə Akkreditasiya üzrə Milli Orqana aşağıdakı sənədləri təqdim etməlidir:

2.2.3.1. laboratoriyanın əsasnaməsini;

2.2.3.2. laboratoriyanın pasportunu;

2.2.3.3. laboratoriyanın akkreditasiya sahəsinin layihəsini;

2.2.3.4. laboratoriyanın standartın tələblərinə uyğun işlənib hazırlanmış idarəetmə sisteminin keyfiyyət üzrə rəhbərlik sənədini;

2.2.3.5. şəxsiyyətini təsdiq edən sənədin surətini.

2.2.4. Hüquqi şəxs olan ərizəçi ərizə ilə birlikdə Akkreditasiya üzrə Milli Orqana aşağıdakı sənədləri təqdim etməlidir:

2.2.4.1. laboratoriyanın əsasnaməsini;

2.2.4.2. laboratoriyanın pasportunu;

2.2.4.3. laboratoriyanın akkreditasiya sahəsinin layihəsini;

2.2.4.4. laboratoriyanın standartın tələblərinə uyğun işlənib hazırlanmış idarəetmə sisteminin keyfiyyət üzrə rəhbərlik sənədini;

2.2.4.5. hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surətini.

2.2.5. Ərizəçinin yazılı müraciəti Akkreditasiya üzrə Milli Orqana təqdim edildiyi gün qeydiyyata alınır və akkreditasiya prosesinə başlanılır.

2.2.6. Akkreditasiya üzrə Milli Orqan 30 gün müddətində müraciəti araşdıraraq yekun qərar qəbul edir. Fiziki şəxs olan ərizəçi bu Qaydaların 2.2.3-cü yarımbəndində göstərilmiş sənədləri, hüquqi şəxs olan ərizəçi bu Qaydaların 2.2.4-cü yarımbəndində göstərilmiş sənədləri təqdim etmədiyi halda, Akkreditasiya üzrə Milli Orqan həmin sənədlərin təqdim olunmasını tövsiyə edir. Sənədlərin təqdim olunmaması akkreditasiya attestatının verilməsindən imtina barədə qərarın qəbulu üçün əsasdır.

2.3. Qiymətləndirmə

2.3.1. Akkreditasiya üzrə Milli Orqan təqdim edilmiş sənədlər əsasında laboratoriyanın standartın tələblərinə uyğunluğunu yerində qiymətləndirir.

2.3.2. Akkreditasiya olunmaq üçün müraciət etmiş laboratoriyanın standartın tələblərinə cavab verməməsi akkreditasiyadan imtina üçün əsasdır.

2.4. Qərarın qəbul edilməsi

2.4.1. Laboratoriya standartın tələblərinə cavab verdiyi halda, Akkreditasiya üzrə Milli Orqan akkreditasiya haqqında qərar qəbul edir və akkreditasiya barədə attestatı tərtib edir. Akkreditasiya barədə attestata əlavə olaraq, akkreditasiya sahəsinin müəyyən edilməsi haqqında sənəd tərtib olunur. Akkreditasiya sahəsinin müəyyən edilməsi haqqında sənəddə laboratoriyanın akkreditasiya sahəsinə aid olan məhsullar, sınaq növləri göstərilməlidir.

2.4.2. Akkreditasiya barədə attestatın verilməsi haqqında qərar qəbul edildiyi gündən etibarən 7 (yeddi) gün ərzində Akkreditasiya üzrə Milli Orqan akkreditasiya barədə attestatı ərizəçiyə təqdim etməlidir. Akkreditasiya barədə attestatı və akkreditasiya

sahəsinin müəyyən edilməsi haqqında sənədi 7 (yeddi) gün ərzində təqdim etmək mümkün olmadıqda, həmin sənədlər dərhal poçt vasitəsilə ərizəçiyə göndərilir.

2.5. Akkreditasiya barədə attestat 4 (dörd) il müddətində etibarlıdır.

2.6. Akkreditasiyanın aparılması üzrə xərclər ərizəçi tərəfindən ödənilir.

2.7. Akkreditasiya üzrə Milli Orqanın qanunsuz hərəkətləri ərizəçinin xərclərinin yaranmasına səbəb olarsa, xərclər Akkreditasiya üzrə Milli Orqan tərəfindən ödənilir.

2.8. Ərizəçi Akkreditasiya üzrə Milli Orqanın vəzifəli şəxslərinin hərəkətlərindən (qərarlarından) inzibati qaydada və (və ya) məhkəməyə şikayət verə bilər.

---

*© «VneshExpertService» LLC*